DOI: 10.36719/AEM/2007-2020/54/107-110

**Şahin Azər oğlu Zeynalov**
akademiyap122@gmail.com

# MİLLİ MƏNƏVİ DƏYƏRLƏR VƏ KİBER TƏHLÜKƏ

***Açar sözlər:*** *milli dəyər, kiber məkan, sosial mühit*
***Key words:*** *national value, cyber space, social environment*
***Ключевые слова:*** *национальные ценности, киберпространство, социальное окружение*

XXI əsrin başlanğıcında meydana gələn kiber təhlükə öz xüsusiyyəti ilə qarşısına qoyulan məqsədlərə çatmaq üçün ortaya çıxmış bir anlayışdır. İlk növbədə kiber təhlükə anlayışının meydana gəlməsini araşdırmaqla qarşıya qoyulan məqsədi daha aydın başa düşməyə və bu təhlükə ilə mübarizə aparmağın daha optimal yolunu müəyyənləşdirə bilərik. Beləliklə, ilk öncə kiber məkan, kiber təhlükə, kiber terrorizm, kiber cinayət kimi anlayışların niyə yaranması və bütün dünya dövlətlərinin bu təhlükə ilə mübarizə aparmasına diqqət yetirək.

Soyuq müharibənin sona yetməsi ilə meydana gələn dünyanın yeni dünya nizamı, yəni ABŞ - ın yeni strategiyasi dünyanı qlobal məkanda daima müxtəlif üsullarla nəzarət etməyi hədəfə almışdı. Buna şərait yaradan amil isə keçmişdə olan dövlətlərarası sərhədlərin yox olması ilə hamının bir - biri ilə münasibətdə olmasını şərtləndirdi. Müxtəlif sivilizasiyalar arasında olan münasibətlərin həll edilməsi zərurətinin ortaya çıxarılması hamının bir araya gəlməsi ilə bunu aradan qaldırmağa vadar etdi. Buna əsas isə SSRİ - nin dağılması ilə müstəqillik qazanan dövlətlərin siyasi,iqtisadi, sosial əsaslarının zəif olması və gələcək inkişaf prioritetlərinin dəqiq olmaması idi. Dünyanın hegemon dövlətlərinin dünya üzərində nəzarəti əldə etməsi artıq müharibə ilə yox, insanları ələ keçirərək onların tələbat və istəklərini təmin edərək dövlət siyasəti və milli – mənəvi dəyərlərdən uzaqlaşdıraraq hər bir dövlətin daxili işlərinə müdaxilə etmək imkanı qazandıra bilərdi. İnformasiya təhlükəsizliyi anlayışı da bu müharibə gedişatında ortaya qəsdən atılmış bir addım idi. Belə ki, dövlətlərarası sərhədlərin itməsi ilə insanların maniəsiz istənilən formada hərəkət etməsi ilə paralell, informasiya məkanı yaradılaraq hər bir insanın bu məkanda hərəkət etməsinə virtual olaraq şərait yaradıldı. Bu şəraitin yaradılması isə ilk öncə insanların daxili tələbatı və istəklərini süni olaraq təmin edən internet şəbəkəsinin əlçatanlığı oldu.

Müasir dünyada qlobal dəyərlərin insanların zövqünü və tələbatını asanlıqla təmin etməsi bəzən milli dəyərləri kölgəyə salaraq vətəndaşın dövlətdən uzaqlaşması ilə nəticələnir. Bu isə özü ilə vətəndaşın üzərinə düşən məsuliyyətin laqeydlik ilə əvəzlənməsi ilə nəticələnir. Qlobal dəyərlərin bütün insanları nəzarətə götürmək gücünün olmamasını nəzərə alaraq, deyə bilərik ki, insanların səfərbər olunma gücünün effektivliyi insanların milli dəyərlərə nə dərəcədə bağlı olmasından asılıdır. Digər amil, dünyada baş verən qlobal proseslər dövlətlərin daxili siyasətinə kölgə salaraq insanları daha cəlbedici olan məsələlərə çəkərək, ölkənin daxili siyasi mühitinin asılı olmasına gətirib çıxara bilər. Gələcək inkişafımızın öz əlimizdə olmasına gedən yol tarixən bizə aid olan dəyərləri düzgün şəkildə dərk etməklə qlobal proseslərlə paralell bunu tətbiq edərək öz vətəndaş mövqeyimizi milli maraqlarla uzlaşdıraraq dövlət – vətəndaş arasında olan körpünü daha da möhkəmlətməkdir.

Bəşəri dəyərlərin düzgün dərk edilməsi milli dəyərlərimizi daha da zənginləşdirərək cəmiyyətin həyat fəaliyyətinin dinamikasını daha da zənginləşdirər. Bəzən milli dəyərlərdən düzgün istifadə edilməməsi insan resursunun itikisi ilə nəticələnir. Müasir dövrdə insan resursunun itirilməsi və ya resurs kimi artıq tükənməsi ölkədə olan milli dəyərlərimizi qorumaq gücünü itirməklə dövlət maraqlarının reallaşmasına maniyə ola bilər.

Kiber təhlükənin aktuallaşması və bugün bu təhlükənin daha önəmli olması isə dünya ölkələrinin qlobal standartlara uyğunlaşaraq təhlükəsizliyini təmin etmək üçün özündən asılı olmadan güclü dövlətlərin standartlarını qəbul etməklə nəticələndi. Qlobal standartların milli xarakterli amilləri üstələməsi kimi yaranan süni mənzərə dövlət – vətəndaş arasında olan münasibətlərin daha da sıx olmasına maniyə oldu. Bununla əlaqədar kiber təhlükə anlayışının törədə biləcəyi təhlükələr və bu anlayışın insanlara qarşı mübarizə üsülləri haqqda qısa dayanaraq kiber təhlükələrin hansı fəsadlara yol açdığını nəzər salaq.

Libiki psixoloji müharibəni 4 hissəyə ayırır:
- vətəndaş ruhunun sındırılması;
- hərbi qüvvələrdə mənəvi duruma və əhval - ruhiyyəyə nəzarət;
- komandanlığa dezinformasiyanın ötürülməsi;
- mədəniyyətlər müharibəsi (1).

Cəmiyyətdə baş verən informasiya çoxluğuna qarşı reaksiyaların qeyri – adekvat olması insanlarda fikir ayrılığı ayradaraq insanların bir birindən uzaqlaşaraq yad təsirlərin altına müvəqqəti düşməsinə şərait yaratmasına və milli mənəvi dəyərlərin öz missiyasını gerçəkləşdirməyə maniyə yaradır.

Dünya dövlətlərinin inkişafı qarşılıqlı şərtlərlə bir birini inkar etməməklə mümkünsə, bundan əks olaraq milli mənəvi dəyər sadəcə fərd olaraq şəxsiyyətsizləşməməni tələb edir. Cəmiyyət daima dəyişikliyə uğrayaraq real gerçəkliyə adaptasiya olunur, amma bu zaman bizim mövcudluğumuzun real təminatı olan milli mənəvi dəyərləri xarici təsirlərdən qorumaq hər bir vətəndaşın şəxsi məsuliyyətinin olmasını tələb edir. Bu isə vətəndaşlıq mövqeyinin şəxsi mövqe ilə uzlaşmasını zəruri edir.

Milli mənəvi dəyərlərin daha səmərəli fəaliyyəti üçün ölkənin milli maraqlarına yad və maniyə olan dəyərlərlə rəqabət aparmaqla deyil,əksinə öz daxili elementlərini daima inkişaf etdirmək zərurətini və tələbatını formalaşdırmalıdır. Bunun nəticəsində ölkəyə aid olan milli sərvətlərin vətəndaş mövqeyindən şüurlu olaraq düzgün qiymətləndirilərək səmərəli istifadə edilməsi dövlət – vətəndaş münasibətlərini daha sıx olmağa kömək edər.

Milli özünüdərk cəmiyyətin sosial təbəqələr arasında olan fikir ayrılığının daha da genişlənməsinin qarşısını alaraq bugün və sabah üçün olan milli tələbatların daha düzgün qəbul edilərək milli mənəvi dəyərlərin qoruyucusu kimi çıxış edir.

Müasir zamanda hər bir insanın dünya siyasi proseslərində baş verənləri və ölkənin daxili proseslərini izləmək tələbatı var. Keçmişdə hər bir ölkənin öz sərhədləri çərçivəsində olması və kənar informasiyalara əlçatan olmaması insanları bir birindən uzaq salırdısa, müasir qloballaşma insanları bir araya gətirərək dünya problemlərini birgə həll etməyə çağırır. Bu isə müxtəlif sivilizasiyaya mənsub insanların bir araya gəlməsi ilə nəticələnərək eyni mövqe nümayiş etdirməsi ilə nəticələnir.

Qloballaşma dövrünün özü ilə gətirdiyi yeni bir sosial mühitə vətəndaşların necə bir davranış nümayiş etdirməsi ölkənin milli mənəvi dəyərlərə olan təhlükənin ölçüsüdür. Belə ki, yeni sosial mühit vətəndaşların iradəsindən asılı olmadan tam azad olmaq imkanı yaradır. Belə bir halda hər bir vətəndaş özünü reallaşdırmaq üçün imkanlar yaranır. Bu imkanın necə dəyərləndirilməsi isə vətəndaşın milli mənəvi dəyərlərin qorunması ilə paralell baş verməlidir. Yeni sosial mühit, adətən, insanların fəaliyyət, mövqeyinin olub – olmamasını nəzərə almadan sosiallaşdırmaq gücünə malikdir. Sosiallaşdırırılan insan dövlət siyasətini tam anlamaq gücünə malik deyil, çünki şəxsiyyət olmadan sosiallaşmaq insanın proseslərin bir hissəsini görməyə imkan verir, bu isə insanın tam reallığı dərk etməsinə imkan vermir. Belə olan halda milli mənəvi dəyərlərin insanlar tərəfindən daha aydın anlaşılaraq onların fəaliyyətində prioritet amil olması üçün dövlət – vətəndaş münasibətlərini daima nəzarətdə saxlamaq lazımdır.

Ümumi davranış qaydalarının yaranması insanlarda artıq informasiya üzərində deyil, informasiyanın insanlar üzərində üstünlük qazanmasına şərait yaradır. Nəzərinizə çatdırmaq istərdim ki, insanların ümumi davranış ətrafında birləşməsi insanın bilməyərəkdən kütlə halına çevrilərək istifadə obyektinə çevrilməsinə və dövlətin daxili siyasətinə hər an kiber hücüm yaratmasına şərait yaradan vasitəyə çevirir. Belə ki, müasir dövrdə bir çox inqilablardan öncə internet vasitəsilə təhrif olunmuş informasiyalarla insanların manipulyasiya olmasının şahidi olmuşuq. Kiber təhlükələrə yol açan hallardan biri də insanların özündən asılı olmadan və asılı səbəblərdən daxil olduğu kiber məkanda müəyyən təzyiq və çaşqınlıqla üzləşməsidir. Kiber hücümun hədəfi ilk növbədə cəmiyyətin informasiya strukturudur. Buna görə mütəmadi olaraq dövlət strukturlarının fəaliyyəti vətəndaşlara çatdırılmalı və vətəndaş - dövlət arasında olan münasibətlər dialoq müstəvisinə keçirilməlidir.

Milli mənəvi dəyərlərlə qlobal dəyərlərin inteqrasiyası bəzən insanlar arasında olan ənənəvi münasibətlərin sıradan çıxaraq daha çox onların davranışında əks olunur. Bu səbəbdən insan davranışını şərtləndirən cəmiyyətin fəaliyyət mexanizmi çox vaxt özünü fikir ayrılığında göstərir. Milli mənəvi dəyərlərin daima qorunması və rəhbər tutulması ölkənin daxili mühitinin daha da dayanıqlı olmasını şərtləndirmək gücündədir.

Qlobal məkan isə informasiyanı hamıya çatdıraraq insanları qlobal çərçivədə düşünməyə çağıraraq insanlar arasında münaqişələrə, bəzən isə sülh axtarmağa təhrik edir. Bunun nəticəsi olaraq, hər bir ölkə öz milli təhlükəsizliyini qorumaq üçün malik olduğu məxfi məlumatları qorumağa çalışarkən, kiber hücümlar bəzən bu məlumatları sıradan çıxarmaqla dövlətin təhlükəsizliyinə ziyan vuraraq, bu məlumatları cəmiyyətə açıq etməklə çox böyük mənfi halların yaranmasına şərait yarada biləcək gücdədir. Bunu nəzərə alaraq, kiber təhlükələrə qarşı mübarizə üçün dünya təcrübəsindən faydalanmaq, həm də dünya ölkələri ilə qarşılıqlı razılaşmalara qoşulmaqla bu təhlükələrin qarşısını tam da olmasa, kiçik zərərlə aradan qaldırmaq mümkündür. Nəzərə alsaq ki, informasiya insan tərəfindən yaradıldığından, hər bir sistemin zəif tərəfini tapmaqla ona nüfuz etmək olar. Bu səbəbdən ölkənin daxili resursları hesabına yaradılan sistemlər daha davamlı və etibarlı

olar ki, bu da xarici kəşfiyyat orqanlarının dövlətin məxfi məlumatlarına sahiblənib ona qarşı müəyyən vasitələrlə istifadə etməsinə imkan verməz.

Kiber təhlükələrin qarşısını almaq istiqamətində milli təhlükəsizlik mövqeyindən yanaşsaq, ilk öncə milli maraqlara söykənən və milli kimliyimizi qorumaqla qurulan sistem, habelə dünya təcrübəsinin nailiyyətlərindən istifadə etməklə qurulan stratetegiya daha səmərəli olar. Nəzərə almaq lazımdır ki, kiber təhlükə dövlətə qarşı birbaşa deyil, insanlar üzərindən başladılan hiss olunmayan addımdır. Cəmiyyətin informasiyanın nə dərəcədə düzgün olub - olmamasını araşdırmadan münasibət bildirməsi və onun əsasında qərara gəlməsi dövlətin daxilində xaosa yol açaraq insanlardan istifadə edilərək ölkədaxili öz niyyətlərini həyata keçirtmək üçün xarici dövlətlərə şərait yaradar. Bütün bunları nəzərə alsaq, vətəndaş qlobal məkanda hər bir halda öz dövlətinin mənafeyi naminə mövqe nümayiş etdirərək, dövlət maraqlarını əsas götürərək kiber hücümlara cavab verməlidir. Bu isə, insanların siyasi mədəniyyətinin yüksək olmasını və bir biri ilə kompromisə gəlməyi şərtləndirir. Vətəndaş mövqeyinin formalaşmasına öz təsirini göstərən kiber təhlükələr dövlət siyasətinin düzgün başa düşülə bilməməsi ilə nəticələnə bilər ki, bu da dövlət və vətəndaşlar arasında münaqişə vəziyyəti yaradaraq dövlətin xarici siyasətinə zərər vuraraq, onun beynəlxalq imicini aşağı salaraq, onun böyük layihələrdə iştirakına maniyə yaradaraq, ölkənin iqtisadiyyatını inkişafdan geri salmaqla insanları xarici qüvvələri daha da üstün görmələrinə yol açmaqla, ölkənin gələcək inkişafını xarici qüvvələrdən asılı vəziyyətə sala bilər. Bütün bu amilləri nəzərə alaraq dünya təcrübəsini sizlərlə bölüşərək kiber təhlükə ilə mübarizə üsullarına toxunmaq istərdim.

Ümumiyyətlə, kiber təhlükəsizliklə mübarizə spesifik xüsusiyyətlərə malik olan müvafiq hüquqi və texniki problemlər kompleksinin meydana gəlməsi ilə müşayiət olunur. Bu, əsasən, aşağıdakılarla bağlı olur:

- kiberterrorçuluğa qarşı mübarizə sahəsində cinayət - prosessual fəaliyyəti nizamlayan qanunvericilik aktlarının olmaması;
- informasiya - telekommunikasiya sahəsində baş verən cinayətlərin qarşısının alınması, aşkar olunması və açılması üzrə ixtisaslaşan, xüsusi olaraq hazırlanmış mütəxəssislərin, əməliyyat və istintaq aparatının olmaması;
- kiberhücumlara müqavimət göstərə biləcək zəruri texniki bazanın olmaması;
- xarici ölkələrin hüquq - mühafizə orqanları ilə etibarlı qarşılıqlı fəaliyyət mexanizmlərinin qurulmaması (2).

Başqa sözlə, terrorçuluqla mübarizə sahəsində olduğu kimi, kiber terrorçuluğun və kiber cinayətkarlığın qarşısının alınması məsələsini bir ölkə çərçivəsində, yalnız onun daxili imkanları hesabına həll etmək real deyildir. Ona görə də inkişaf etmiş dünya dövlətlərində kiberfəzanın təhlükəsizliyinə zəmanət vermək üçün yalnız öz ərazilərində deyil, eyni zamanda, digər dövlətlərin, habelə kiberfəzaya çıxışı olan üçüncü yə ya dördüncü dərəcəli ölkələrin ərazilərində də müvafiq informasiya təhlükəsizliyi tədbirlərinin görülməsi, bu istiqamətdə ölkələrarası qarşılıqlı əlaqələrin qurulması zəruridir.

Dünyanın sürətlə inkişaf edən ölkələrindən biri kimi Azərbaycanda da müasir informasiya kommunikasiyası texnologiyalarının geniş tətbiqi bu sahədə davamlı kibertəhlükəsizlik tədbirlərinin həyata keçirilməsini gündəmə gətirmişdir. Hələ 2011 - ci ildə Rusiyanın Yekaterinburq şəhərində təhlükəsizlik məsələlərinə həsr olunmuş beynəlxalq tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təhlükəszilik Şurasının katibi, akademik Ramiz Mehdiyev kibertəhlükəsizlik məsələlərinə toxunaraq demişdir ki, " Hər bir müasir dövlət kimi Azərbaycan da İKT - nin inkişafına diqqət yetirir, bu sahə ölkənin sosial iqtisadi inkişafının prioritet istiqaməti elan edilmişdir və biz informasiya təhlükəsizliyi məsələlərində Avropa Şurası, Avropa İttifaqı, NATO, Beynəlxalq Elektrik Rabitəsi İttifaqı və digər beynəlxalq təşkilatlarla fəal qarşılıqlı əlaqələr saxlayırıq " (3).

Bununla yanaşı, bir çox ölkələrdə informasiya təhlükəsizliyi üzrə strategiyanın həyata keçirilməsi, dövlət və hökumət orqanlarında, özəl təşkilatlarda, o cümlədən hərbi, maliyyə, bank, təhsil və digər müəssisələrdə kompüter və telekommunikasiya şəbəkələrinin, informasiya sistemlərinin qorunması, kiberfəzanın təhlükəsizliyinin təmin edilməsi məsələlərini dövlət səviyyəsində təşkil etmək, əlaqələndirmək və vaxtında onların qarşısının alınmasına yardım göstərmək məqsədilə xüsusi qurumlar - koordinasiya mərkəzləri yaradılır.

Kiber təhlükənin əhatə dairəsinin belə geniş olması qloballaşan dünyada informasiyanın bütün insanları əhatə edərək, dövlətin qanunvericilik, hüquqi, psixoloji, sosial problemlər sahəsində olan boşluqlar üzərindən hücüm edərək insanları situativ manipulyasiya edərək yarada biləcəyi pozuculuq fəaliyyətidir. Azərbaycan Respublikasının milli maraqlarına və ilk növbədə Dağlıq Qarabağ probleminin həll olunmasına təhdid olan kiber təhlükə sadəcə vətəndaş mövqeyində milli maraqları rəhbər tutması dövlətin bu istiqamətdə fəaliyyətini gücləndirməsinə kömək etməsinə, ölkəmizin bugünü və gələcəyi üçün geniş imkanlar açaraq dövlətimizin bu boşluqları vaxtında qarşısını almasına, düşmən qüvvələrin ölkəmizdə olan fəaliyyətin qarşısını vaxtında almasına töhfə verməklə dövlət siyasətinin daha da dayanıqlı olmasına zəmin yaradar. Bu səbəbdən hər birimiz

dövlətimizin siyasətinə daima dəstək olaraq gələcəyimiz naminə bu cür hücumlardan təkcə özümüzü qorumaqla kifayətlənməməli, sadəcə düzgün şəkildə onlarla mübarizə aparmalıyıq.

## Nəticə

Ümumiyyətlə, bir ölkə hüdudunda informasiya təhlükəsizliyi üzrə zəruri tədbirləri həyata keçirməklə kiber təhlükəsizliyi, yəni kiberfəzada informasiya təhlükəsizliyini təmin etmək mümkün deyil. Belə ki, informasiya təhlükəsizliyi məsələlərinin həll edilmədiyi digər ölkələrdən kompüter şəbəkələri, o cümlədən internet vasitəsilə, hətta ən güclü təhlükəsizlik tədbirləri görülmüş digər ölkələrin kompüter şəbəkələrinə daxil olmaq və bədniyyətli, o cümlədən cinayətkar və terrorçuluq əməllərini həyata keçirmək mümkündür. Burada isə əsas məqamın vətəndaşın dövlət maraqlarına nə qədər bağlı olması və milli mənəvi dəyərlərinin qorunması naminə tutduğu mövqedir.

## Ədəbiyyat

1. http://www.anl.az/down/meqale/xalqcebhesi/2014/aprel/364561.htm
2. http://newtimes.az/az/cyberspace/3441/
3. İnformasiya təhlükəsizliyi: kompüter cinayətkarlığı və kiberterrorçuluq. Vaqif Qasımov, Bakı, 2007, s.192

## National moral values ans cyber threat

**Summary**

Thereby, cyber threat is a tool used by foreign forces to pursue their own interests, first of all, by hindering the independent policy of the state. It is necessary and important not to be exposed to such influences, to protect our national spirit, to develop our national way of thinking constantly by protecting it from outside influences, to respect our national values, to distance our national patriotic feelings from extremist forces, to unite around national deeds. While our newly independent country maintains its development and independence, including in the global space, we, as a citizen, can help the state to develop further in this way by preserving our nationality.

## Национальные нравственные ценности и кибер-угроза

**Резюме**

Таким образом, киберпространство - это инструмент, используемый иностранными силами для преследования их собственных интересов, в первую очередь препятствуя независимой политике государства. Необходимо и важно не быть подверженным подобным влияниям, защищать наш национальный дух, непрерывно развивать наш национальный образ мышления, защищая его от внешнего влияния, уважать наши национальные ценности, оберегать наши национальные патриотические чувства от экстремистских сил, объединяться вокруг национальных деяний. В то время как наша недавно получившая независимость страна продолжает оставаться независимой и развиваться, включая мировое пространство, мы, как граждане, можем помочь государству развиваться дальше, сохраняя нашу национальность.

**Rəyçi: dos. Ü.Haqverdi**

Göndərilib: 29.04.2020 Qəbul edilib: 01.05.2020